*“Ordunun qüdrətini, onun döyüş qabiliyyətini, qələbə iradəsini təşkil edən döyüşçülərin vətənpərvərlik hissidir. Hər bir əsgər, zabit, döyüşçü vətənpərvərlik hissini, Vətənə, torpağa, müstəqil dövlətimizə, xalqımıza sədaqət hissini hər şeydən üstün tutmalıdır”.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 20 sentyabr 2014-cü il | № 72 (1889) | Qiyməti 25 qəpik


## İrimiqyaslı təlimlərdə bütün qoşun növlərinin döyüş hazırlığının səviyyəsi yoxlanılıb





***Ümumiyyətlə, dünya ordularının döyüş təcrübəsi və müharibələr tarixi göstərir ki, hər bir ölkənin hərbi qüdrətinin möhkəmlənməsinə zəmin yaradan başlıca amillərdən biri də orduda təlimlərin vaxtlı-vaxtında keçirilməsidir. Böyük hərb xadimləri sübuta yetiriblər ki, təlim görməyən ordu heç zaman döyüşdə qələbə qazana bilməz. Biz bunun acı nəticəsini Birinci Qarabağ müharibəsi dövründə də hiss etdik. Bəzən döyüşçülərimizin yetərli təcrübəsinin olmaması səbəbindən də hərbi əməliyyat uğursuzluqla nəticələnirdi. Hərb xadimlərinin fikirlərinə görə, təlim əsgərin akademiyasıdır, yəni, təlim meydanında şəxsi heyət ötən dövrdə mənimsədiyi hərbi bilikləri əyani surətdə nümayiş etdirmək imkanı qazanır və hansı döyüş təcrübəsinə malik olduğunu sübuta yetirir. Əsgərlərin döyüşdə inamının güclü olması bilavasitə peşəkar təlimlərdə qazanılan yüksək vərdişlərlə ölçülür. Əslində, əsgərlər təlim meydanında özlərini döyüşdə olduqları kimi hiss edir və düşmənə qalib gəlməyin əsas sirlərinə yiyələnirlər.***

Ümummilli lider Heydər Əliyevin müstəqillik dövründə hakimiyyətə qayıdışından sonra ordu quruculuğunda önəm verdiyi əsas məsələlərdən biri də hərbi hissələrin döyüş qabiliyyətinin artırılması üçün təlimlərin keçirilməsi idi. Bəzən ulu öndər vaxt tapıb belə təlimlərdə şəxsən iştirak edərdi və şəxsi heyət qarşısında çıxış edərək əsgər və zabitlərə dəyərli tövsiyələrini bildirərdi. Ötən Qarabağ savaşının iştirakçıları yaxşı xatırlayır ki, 1994-cü ilin, əsasən, birinci yarısında Azərbaycan Ordusunda keçirilən irimiqyaslı təlimlərdən sonra bir sıra hərbi əməliyyatlar bizim tərəfin uğurları ilə nəticələndi. Həmin dövrün döyüşçüləri ulu öndərin çağırışından ruhlanaraq, "Vətən uğrunda", "Heydər Əliyev uğrunda" şüarı ilə müharibəyə yola düşürdülər...

**(Ardı 2-ci səhifədə)**

## Azərbaycan-Polşa əlaqələri müzakirə olunub

Sentyabrın 18-də Xarici işlər naziri Elmar Məmmədyarov Azərbaycanda səfərdə olan Polşanın Xarici işlər nazirinin müavini Tomas Orlovskinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

AzərTAc xəbər verir ki, görüşdə iki ölkə arasında əlaqələrin mövcud inkişaf səviyyəsindən məmnunluq ifadə olunub.

T.Orlovski Polşanın Azərbaycanın Cənubi Qafqaz regionunda sabitliyin və təhlükəsizliyin təmin olunmasında rolunu yüksək qiymətləndirdiyini söyləyib. O, beynəlxalq sülh və təhlükəsizliyin qorunması üçün NATO əməliyyatlarına verdiyi töhfələrinə görə Azərbaycana təşəkkürünü bildirib.

Elmar Məmmədyarov Azərbaycanın enerji və infrastruktur layihələri, qarşılıqlı faydalı əməkdaşlıq şəbəkəsi vasitəsilə region və onun hüdudlarından kənarda sabitliyə töhfə verdiyini deyib. Nazir sentyabrın 20-də "Əsrin müqaviləsi"nin 20 illiyinin qeyd olunacağını və bu çərçivədə Bakıda "Cənub" qaz dəhlizinin təməlqoyma mərasiminin keçiriləcəyini diqqətə çatdırıb.

Nazir Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin region üçün əsas təhlükə mənbəyi olduğunu qeyd edərək, ATƏT-in Minsk qrupunun həmsədr ölkələri tərəfindən müxtəlif səviyyələrdə bəyan edildiyi kimi, mövcud status-kvonun qəbuledilməzliyini vurğulayıb. E.Məmmədyarov əlavə edib ki, münaqişənin həlli üçün ilk növbədə Ermənistan silahlı qüvvələri işğal olunmuş Azərbaycan ərazilərindən çıxmalıdır.

Avropa İttifaqı ilə əlaqələrə dair müzakirələr zamanı "Şərq tərəfdaşlığı" proqramı çərçivəsində əməkdaşlığın dövlətlərin imkanları və fərqli maraqları nəzərə alınaraq inkişaf etdirilməsinin vacibliyi vurğulanıb.

E.Məmmədyarov Azərbaycanın Avropa İttifaqı ilə enerji sahəsində strateji tərəfdaşlığa malik olduğunu qeyd edərək, ölkəmizin digər sahələrdə də bu təşkilat ilə strateji tərəfdaşlıq münasibətləri qurmaq niyyətini diqqətə çatdırıb.

Görüşdə regional proseslər və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## Ankarada "Qarabağda üç nəslin bir soyqırımı" adlı sərgi açılıb

Sentyabrın 17-də Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası və Türk Strateji Araşdırmalar Mərkəzinin (TÜRKSAM) təşkilatçılığı ilə Ankarada "Qarabağda üç nəslin bir soyqırımı" adlı sərgi açılıb.

Sərginin açılış mərasimində Türkiyə Böyük Millət Məclisinin (TBMM) sədri Cəmil Çiçək, TÜRKSAM-ın rəhbəri, Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun üzvü Sinan Oğan, hökumət və dövlət rəsmiləri, deputatlar, Azərbaycanın Ankaradakı səfirliyinin əməkdaşları, şəhər ictimaiyyətinin tanınmış simaları, elm, təhsil və mədəniyyət xadimləri iştirak ediblər.

Cəmil Çiçək sərginin "Xatirə kitabı"nda Azərbaycan xalqı ilə həmrəyliyini nümayiş etdirən ürək sözlərini yazıb.

Səfirlikdən AzərTAc-a bildiriblər ki, sərgidə Azərbaycan Respublikasının Dağlıq Qarabağ və ona bitişik ərazilərinin təcavüzkar Ermənistanın silahlı qüvvələri tərəfindən işğalından əvvəl və sonrakı vəziyyətini əks etdirən fotostendlər qurulub, digər əyani vəsaitlər nümayiş etdirilib. Sərgi iştirakçılarına Azərbaycan həqiqətlərindən bəhs edən kitab və jurnallar paylanıb. Sərgidə Ermənistanın hərbi təcavüzü nəticəsində həyatını itirən, əsirlikdə olan, işğalçı tərəfin işgəncələrini və digər məşəqqətləri yaşayan soydaşlarımızın şəxsi əşyaları, geyimlərindən nümunələr də nümayiş olunub.

## Vaşinqtonda "İran və onun qonşuları: nüvə sazişinin ABŞ-ın regionda siyasəti üçün nəticələri" mövzusunda forum keçirilib

Vaşinqtondakı Vudro Uilson adına Beynəlxalq Mərkəzdə "İran və onun qonşuları: nüvə sazişinin ABŞ-ın regionda siyasəti üçün nəticələri" mövzusunda forum keçirilib. Tədbirin məqsədi İrana və qonşu ölkələrə dair yeni hesabatı müzakirə etməkdən ibarət idi. Hesabatda hərtərəfli nüvə sazişi imzalanandan sonra İranın Yaxın Şərqdəki digər ölkələrlə münasibətlərində potensial dəyişikliklər və onların ABŞ-ın regiondakı siyasətinə təsirindən bəhs edilir.

Forumun işini Vudro Uilson adına Beynəlxalq Mərkəzin Yaxın Şərq proqramının direktoru Hale Esfandiari açıb. Sonra ABŞ-ın Çexoslovakiyada və Venesuelada sabiq səfiri Uilyam Luers, ABŞ-ın İsraildə, Rusiyada, Hindistanda, Salvadorda, Nigeriyada və İordaniyada sabiq səfiri Tomas Pikerinq, ABŞ-ın Hindistanda sabiq səfiri Frenk Uisner, ABŞ Milli Kəşfiyyat Sisteminin sabiq əməkdaşı Pol Pillar və Nyu-York Universitetinin Beynəlxalq Əməkdaşlıq Mərkəzinin direktoru Barnet Rubin öz arqumentlərini təqdim ediblər. Bu şəxslər hamısı Vudro Uilson Mərkəzi tərəfindən 2002-ci ildən həyata keçirilən və İran ilə ABŞ arasında problemlərin həllinin diplomatik yollarını tapmaq üçün nəzərdə tutulan "İran layihəsi"nin iştirakçılarıdır.

Çıxış edənlər vurğulayıblar ki, ABŞ-ın bu regiondakı strategiyası bölgənin bütün ölkələrini əhatə etməlidir. Yaxın Şərq və Cənubi Asiya ölkələrinin enerji siyasəti, habelə qondarma "İraq-Şam İslam Dövləti"nin yaranması və bölgədə döyüş əməliyyatları ilə əlaqədar vəziyyət də müzakirə olunub.

AzərTAc-ın ABŞ-dakı xüsusi müxbiri Yusif Babanlı Bakı-Tbilisi-Ceyhan (BTC) layihəsinin həyata keçirilməsi, İsrailin idxal etdiyi neftin 40 faizinin Azərbaycandan nəql olunması, Avropanın enerji təhlükəsizliyinin təmin edilməsinə sanballı töhfə verəcək Cənub Qaz Dəhlizi layihəsinin icrasına başlanması faktlarını qeyd edərək, ABŞ-ın regionda siyasəti üçün Azərbaycanın əhəmiyyəti barədə sual verib. Bu sualı cavablandıran səfir Tomas Pikerinq qeyd edib ki, müxbirin sualında sadalanan faktlar özləri Azərbaycanın Avropa ölkələrinin enerji təhlükəsizliyi üçün alternativ tərəfdaş kimi əhəmiyyətini göstərir.

## Kişineuda keçirilmiş beynəlxalq konfransda Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü pislənib

Sentyabrın 17-də Moldovanın paytaxtındakı "Leogrand Hotel & Convention Center" mehmanxanasında "Dövlətlərin ərazi bütövlüyü və insan hüquqlarının qorunmasının təmin olunması" mövzusunda beynəlxalq konfrans keçirilib.

Forumun əsas məqsədi beynəlxalq hüququn əsas prinsipinin - dövlətlərin ərazi bütövlüyü prinsipinin pozulmasının yolverilməzliyi barədə dünya ictimaiyyətinin müasir mövqeyini təqdim etmək, habelə, vətəndaş cəmiyyətinin diqqətini tolerantlıq ideyalarının irəliləməsinə, ərazi problemlərinin dinc yolla həlli məsələlərinə cəlb etmək idi.

Konfransın işində Moldovanın keçmiş prezidenti Pyotr Luçinski, Azərbaycan Respublikasının Kişineudakı səfiri Namiq Əliyev, MR baş prokurorunun birinci müavini Andrea Pıntya, Macarıstan, Ukrayna və Çexiya səfirləri, Kişineuda akkreditə olunmuş diplomatik korpusun nümayəndələri, Azərbaycan, Gürcüstan, Pakistan, Ukrayna və başqa ölkələrdən gəlmiş ombudsmanlar və onların nümayəndələri iştirak və çıxış ediblər.

Bir neçə sessiyadan ibarət konfransın gündəliyindəki Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, Abxaziya və Cənubi Osetiya problemləri, Dnestryanı zonada münaqişə, Ukraynada vəziyyət kimi məsələlərin müxtəlif aspektləri müzakirə olunub.

Konfransın plenar iclasında ölkəmizin Moldovadakı səfiri, hüquq elmləri doktoru, professor Namiq Əliyev çıxış edib.

Diplomat öz çıxışında, əsasən, keçmiş sovet dövlətlərində demokratiyanın inkişafı prosesləri, insan hüquqlarının qorunması, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və erməni təcavüzü, azərbaycanlı qaçqınların və məcburi köçkünlərin vəziyyəti, ərazi münaqişələrinin həllində ikili standartlar siyasəti, insan hüquqlarının müdafiəsi sahəsində fəaliyyət məsələlərinə toxunub.

Səfir xüsusi vurğulayıb ki, dünyanın aparıcı ölkələri ərazi münaqişələrinin həlli və insan hüquqlarının müdafiəsi məsələlərində beynəlxalq hüquqa məhəl qoymadan ikili standartlar tətbiq edir, erməni siyasətçilərinin etnik təmizləmə, Cənubi Qafqazda monoetnik zonalar yaratmaq siyasəti yeritdiklərini "görmürlər". Buna görə təsadüfi deyil ki, "bumeranq qanunu" üzrə onlar özləri artıq belə problemlərlə qarşılaşırlar.

Diplomatik nümayəndəliyimizin rəhbəri, həmçinin qeyd edib ki, bu gün Azərbaycan üçün əsas məsələ Azərbaycanın bir milyon məcburi köçkününün və Ermənistandan olan qaçqınların pozulmuş hüquqlarını bərpa etmək məqsədilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü əsasında həll edilməsidir.

İsrail nümayəndəsi Arye Qut konfransın iştirakçılarına ermənilərin vəhşiliklərindən, onların Azərbaycan şəhərində törətdikləri soyqırımı aktından bəhs edən "Xocalıya ədalət" adlı sənədli film nümayiş etdirib.

Konfrans başa çatdıqdan sonra tədbir çərçivəsində Moldova alimi, tarix elmləri doktoru Ruslan Şevçenkonun "Ermənistan-Azərbaycan münaqişəsi: tarix və müasirlik" adlı kitabının təqdimatı olub.

**AzərTAc-ın materialları əsasında**

## Rayan Uindzor: Azərbaycan Avropa, Qafqaz və digər regionlar üçün strateji cəhətdən vacib ölkədir

Bakıda keçirilmiş birinci Avrointeqrasiya-Beynəlxalq Gənclər Forumu və Gənc Alimlərin Ümumdünya Bakı Forumunun iştirakçısı, Böyük Britaniyanın "Keystone Development Trust" şirkətinin direktoru Rayan Uindzor İnterfaks agentliyinə müsahibəsində Azərbaycanın çox yaxşı iqtisadi perspektivlərinin olduğunu söyləyib. O bildirib ki, Azərbaycan güclü neft-qaz sənayesinə malikdir. Bundan başqa, hökumət gəncliyin hərtərəfli inkişafı üçün fəal şəkildə investisiya yatırır. Bunun isə nəticə etibarilə neft və qazla müqayisədə iqtisadiyyata daha güclü və uzunmüddətli təsiri olacaq.

R.Uindzor qeyd edib ki, Azərbaycan Avropa, Qafqaz və digər regionlar üçün strateji cəhətdən vacib ölkədir, dünyada enerji məsələsində əsas oyunçudur. Azərbaycanın təcrübəsi, mövqeyi və təbii ehtiyatları ölkə üçün çox yaxşı imkanlar yaradır.

Ölkələrimiz arasında əlaqələrə toxunan R.Uindzor Böyük Britaniyanın tarixən Cənubi Qafqazda, xüsusilə Azərbaycanda maraqlarının olduğunu söyləyib. O deyib ki, hər iki ölkə ikitərəfli əməkdaşlığa böyük önəm verir. Britaniya hökuməti Azərbaycanın zamanla artan əhəmiyyətini təsdiq edir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə münasibət bildirən R.Uindzor azərbaycanlılarla bu problem haqqında danışıqlarının olduğunu bildirib. "Lakin Böyük Britaniyaya qayıdarkən bizim xəbər buraxılışlarımızda bu barədə məlumatın çatışmazlığı ilə üzləşdim. Halbuki bu, mühüm məlumatdır və daha çox diqqət tələb edir", - deyə R.Uindzor bildirib.

**AzərTAc**

## Milli Məclisdə Böyük Britaniya parlamentinin nümayəndələri ilə görüş keçirilib

Sentyabrın 17-də Milli Məclisdə Azərbaycan-Böyük Britaniya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri Böyük Britaniya parlamentinin nümayəndə heyəti ilə görüşüblər.

AzərTAc xəbər verir ki, görüşdə işçi qrupunun rəhbəri Çingiz Əsədullayev iki ölkə arasında parlamentlərarası əlaqələrin fəal olduğunu deyib. Ç.Əsədullayev Azərbaycanda son illərdə bütün sahələrdə, o cümlədən iqtisadi sahədə müşahidə olunan inkişafdan söhbət açıb. O, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən danışaraq bildirib ki, beynəlxalq ictimaiyyət bu problemin həllinə laqeyd yanaşmamalıdır.

Milli Məclisin beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov Azərbaycan-Böyük Britaniya əlaqələrinin genişləndirilməsində qanunverici orqanların əməkdaşlığının rolundan danışıb.

Böyük Britaniya parlamentinin üzvü Toni Boldri ölkələrimiz arasındakı dostluq əlaqələrini məmnunluqla qeyd edib. O, iqtisadi sahədə uğurlu əlaqələrin mövcud olduğunu, gələcəkdə yeni istiqamətlərdə əməkdaşlığın qurulması üçün yaxşı imkanların olduğunu deyib.

Görüşdə Azərbaycan ilə Böyük Britaniya arasında təhsil, kənd təsərrüfatı və digər sahələrdə əməkdaşlığın yaradılması və genişləndirilməsi məsələləri müzakirə olunub.

# Müdafiə naziri Azərbaycan və Türkiyə HHQ-nin təlimdə iştirak edən şəxsi heyəti ilə görüşüb







***Sentyabrın 19-da Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin rəhbər heyəti irimiqyaslı birgə təlimlərdə iştirak edən Azərbaycan və Türkiyə Hərbi Hava Qüvvələri aviasiya vasitələrinin yerləşdiyi aerodroma gəliblər.***

Müdafiə naziri təlimlərdə iştirak edən uçuş və texniki heyətlə görüşüb, döyüş aviasiyasına baxış keçirib və müxtəlif təyinatlı atəş sistemlərinin hazırlıq səviyyəsi ilə maraqlanıb.

Sonra Azərbaycan HHQ-nin nümayəndəsi polkovnik Elçin Axundov və Türkiyə HHQ-nin nümayəndəsi polkovnik Nihat Çırakoğlu təlimlərdə iştirak edən heyətin hazırlığı, aviasiya vasitələrinin uçuşu və istifadəsi barədə brifinqdə çıxış ediblər.

Təlimlərin əhəmiyyətini vurğulayan Müdafiə naziri bunun tarixi bir hadisə olduğunu qeyd edib və ümummilli liderimiz Heydər Əliyevin "bir millət, iki dövlət" kəlamını bir daha xatırladaraq Azərbaycan ilə Türkiyə dostluğunun əbədi olduğunu diqqətə çatdırıb.

Müdafiə naziri Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti cənab Rəcəb Tayyib Ərdoğanın birgə təlimlərin keçirilməsinə dəstək olduqlarını qeyd edərək dövlət başçılarına minnətdarlığını bildirib. "Hər iki ölkənin Silahlı Qüvvələrinin məqsədi bölgədə sülhə və əmin-amanlığa nail olmaq, bir-birimizə dəstək durmaqdır. Bizim sevincimiz və gücümüz birliyimizə bağlıdır", - deyə Müdafiə naziri birgə təlimlərin hazırlanması və keçirilməsində əməyi olan hər kəsə təşəkkürünü bildirib.

Sonra təlim iştirakçılarına və Müdafiə Nazirliyinin rəhbərliyinə xatirə hədiyyələri təqdim edilib.

Sonda Azərbaycan-Türkiyə hərbi əməkdaşlığının uğurla davam etdirilməsi şərəfinə ənənəyə uyğun olaraq qurban kəsilib.

Təlimlər davam edir.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Dostluğumuz əbədi və sarsılmazdır

***Tarix boyu bu iki millətin böyük dostluğu barədə çox deyilib, çox yazılıb. Ən ağır sınaqlarda bir-birinə dayaq və güvənc olan türk-azəri birliyi zaman-zaman düşmənlərimizin bədxah əməllərinə də rəvac verib. Eyni kökə malik iki millət arasında nifaq salmağa çalışan, böyük dostluğumuza zərbələr vurmağa, birliyimizi zəiflətməyə cəhd göstərən qüvvələr sonda heç nəyə nail ola bilməyiblər. Çünki qəlbən və ruhən sıx bağlı olan birliyi heç nə sarsıda bilməz.***





Ümummilli liderimiz Heydər Əliyev "bir millət, iki dövlətik" deməklə Türkiyə-Azərbaycan dostluğunun böyüklüyünə və əbədiliyinə işarə edirdi. Hələ ötən əsrin birinci yarısında qədim Şərqdə ilk müstəqil dövlət olan Azərbaycan Demokratik Respublikası yadelli qüvvələrin hərbi təcavüzü ilə üzləşmişdi və bu ağır zamanımızda Türkiyə dövləti bizə hərtərəfli dəstək olmuşdu. Tariximizin ən şərəfli səhifələrindən biri olan müstəqil dövlətçiliyimizi dünyada hüquqi baxımdan rəsmən tanıyan ilk ölkə məhz qardaş Türkiyə olub. Militarist qüvvələr Azərbaycanın ilk müstəqilliyini beşiyindəcə boğmağa cəhd göstərəndə türk qardaşlarımız, sözün həqiqi mənasında, bizimlə əsl silah qardaşlığı nümayiş etdiriblər.

20-ci əsrin sonlarında Azərbaycan xalqı ikinci dəfə tarixi müstəqilliyini bərpa edəndə də ən güclü və etibarlı dəstəyi böyük türk millətindən almışıq. Təkcə bir məsələni qeyd etmək lazımdır ki, ölkəmiz hərbi təcavüzə məruz qaldığı bir vaxtda doğma ordumuzun yaradılmasına Türkiyə hökuməti hərətərəfli dəstək olub. Həmin ağır və həlledici dövrdə təcrübəli türk hərbçiləri Azərbaycan Silahlı Qüvvələrinin müxtəlif qoşun növləri üzrə formalaşmasında öz dəyərli töhfələrini əsirgəməyiblər. Mən deyərdim ki, ölkəmizdə müasir hərbi təhsil sisteminin yaradılmasında qardaş Türkiyə dövlətinin hərbi təcrübəsi layiqli örnək olub. Ordu quruculuğunda biz bu dəstəyi və köməyi bu gün də hiss edirik.

Hazırkı dövrdə Azərbaycanın ən ağrılı problemi olan Dağlıq Qarabağ məsələsinin həlli istiqamətində Türkiyə rəhbərliyi mötəbər təşkilatlarda və dövlətlərdə bizə dəstək verir, bu problemin ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapması üçün diplomatik səylərini əsirgəmir. Təkcə bir faktı xüsusi qeyd etmək istərdim ki, nüfuzlu dövlətlərin təzyiqlərinə baxmayaraq, Türkiyə bir dövlət olaraq işğalçı Ermənistanla sərhədlərini açmayacağını və münaqişə həll edilməyincə bu barədə heç bir razılıqdan söhbət gedə bilməyəcəyini bəyan edir. Bax, budur, etibarlı dostluq və qardaşlıq. Ata-babalarımızdan bir məsəl var: Əsl dost dar gündə sınanır. Məhz Türkiyə-Azərbaycan qardaşlığı belə bir güclü dostluğun bariz nümunəsidir.

Müdafiə Nazirliyinin Mətbuat Xidmətinin verdiyi məlumatda da göstərilir ki, cəbhə bölgəsində Azərbaycan Ordusunun keçirdiyi genişmiqyaslı təlimə Türkiyə hərbi qüvvələri bu dəfə də dəstək olub və bir qrup türk həmkarımız təlimdə iştirak edib.

İrimiqyaslı birgə taktiki təlimlərin növbəti mərhələsində iştirak etmək üçün Türkiyə Hərbi Hava Qüvvələrinin aviasiya vasitələri sentyabrın 18-də Azərbaycana gəlib.

Sentyabrın 19-da keçirilən təlimlərin növbəti mərhələsində Azərbaycan və Türkiyə Hərbi Hava Qüvvələrinə məxsus 30-dan artıq aviasiya vasitələri, o cümlədən, MiQ-29, F-16 qırıcı, Su-25 hücum və C-130 Herkules hərbi-nəqliyyat təyyarələri, Mi-24, AH-1W Super Kobra döyüş və Mi-17, Sikorski UH-60 döyüş-nəqliyyat helikopterləri iştirak ediblər.

Təlimlərdə iki ölkənin Hərbi Hava Qüvvələrinin müştərək fəaliyyətinin planlaşdırılması, əməliyyatların keçirilməsi üzrə qarşılıqlı fəaliyyət və döyüş uzlaşması imkanlarının öyrənilməsi, o cümlədən, havadan zərbələr endirməklə yer hədəflərinin məhv edilməsi tapşırıqları yerinə yetirilib.

**Arif VAQİFOĞLU, "Azərbaycan Ordusu"**

# İrimiqyaslı təlimlərdə bütün qoşun növlərinin döyüş hazırlığının səviyyəsi yoxlanılıb



**(Əvvəli 1-ci səhifədə)**

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müasir dövrdə ordu quruculuğunun inkişaf etdirilməsi istiqamətində mühüm addımlar atılır. Bu gün elmi əsaslarla aparılan ordu quruculuğu siyasəti Silahlı Qüvvələrimizin döyüş qabiliyyətinin artırılmasında mühüm əhəmiyyət kəsb edir. Həm ordunun maddi-texniki bazasının möhkəmləndirilməsi, həm də şəxsi heyətin sosial-məişət qayğılarının həll edilməsi istiqamətində həyata keçirilən məqsədyönlü dövlət siyasəti hərbi qulluqçularımızda yüksək döyüş ruhu və qələbə əzmi yaradır.

Hər dəfə olduğu kimi, bu il də Azərbaycan Silahlı Qüvvələrinin ildönümü ilə əlaqədar möhtəşəm hərbi təlim keçirildi. Təlimin gedişini izləyən Prezident, Ali Baş Komandan İlham Əliyev müxtəlif təyinatlı hərbi bölmələrin döyüş hazırlığından razı qaldığını bildirərək belə təlimlərin əhəmiyyətli rolunu qeyd etdi.



Dövlət başçısı vurğuladı ki, hazırda respublikamızda ordu quruculuğu ən prioritet məsələlərdən biridir. Təbii ki, müharibə şəraitində yaşayan ölkə üçün bu, xüsusi əhəmiyyət kəsb edir. Son illərdə Azərbaycan Silahlı Qüvvələri əsaslı inkişaf yolu keçmiş, ordumuzun maddi-texniki bazası hərtərəfli müasirləşdirilmiş, döyüş qabiliyyəti artmışdır. Respublikamızda dünyanın ən nizami ordularından biri formalaşdırılmışdır. Maddi-texniki bazası durmadan təkmilləşdirilən ordumuzun peşəkarlığı da artır. Son illər ərzində ordumuzun təchizatında böyük uğurlara nail olunmuşdur. Azərbaycan hərbi məqsədlər üçün böyük məbləğdə vəsait xərcləyir. Ölkəmizin dövlət büdcəsində ən böyük xərclər orduya sərf edilir. Son illərdə Azərbaycanın Silahlı Qüvvələri ən müasir silahlarla təchiz olunmuşdur. Bu zirehli maşınlar, ən müasir tanklar, artilleriya qurğuları və digər texnikalar düşmənin istənilən hədəfini məhv etməyə qadirdir.

Dövlətimizin başçısı tərəfindən təlimdə fərqlənən hərbi qulluqçulara mükafatlar təqdim edilməsi bir daha ordumuzun şəxsi heyətinə yüksək əhval-ruhiyyə aşıladı.



Müdafiə Nazirliyinin Mətbuat Xidmətindən verilən məlumatda bildirildiyi kimi, Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin təsdiq etdiyi plana əsasən sentyabrın 13-dən başlayan irimiqyaslı təlimlərin növbəti mərhələləri keçirilib.

Təlimlərdə iştirak edən bütün qoşun növlərinin döyüş hazırlığının səviyyəsi, tapşırıqların daha operativ və səmərəli yerinə yetirilməsi, qarşılıqlı fəaliyyətin və təminatın təşkili, qarşıya qoyulan tapşırıqların icrası yoxlanılıb.

Təlim mərkəzləri və poliqonlarda motoatıcı və tank bölmələrinin, raket və artilleriya qurğularının, zenit-raket komplekslərinin, döyüş təyyarə və helikopterlərinin döyüş atışları icra olunub, praktiki raket buraxılışları və bombalama həyata keçirilib.

Təlim nöqtələri, texniki təminat, təmir-bərpa, səyyar ideoloji məntəqələrinə və mobil səhra hospitalına baş çəkən Müdafiə naziri general-polkovnik Zakir Həsənov təlimdə fərqlənən hərbi qulluqçuları mükafatlandırıb.

Müdafiə naziri təlimə cəlb olunan hərbi texnika və silahlara baxış keçirib.

Təlimdə iştirak edən şəxsi heyət qarşısında çıxış edən Müdafiə naziri Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən qarşıya qoyulan tapşırıqların uğurla yerinə yetirildiyini və təlimin məqsədlərinə müvəffəqiyyətlə nail olunduğunu bildirib.

Sonda təlim poliqonunda döyüş texnikalarının keçidi və aviasiyanın uçuşları həyata keçirilib.

**Mayor Arif PƏNAHOV, "Azərbaycan Ordusu", fotolar Vüsal HƏMİDOVUNDUR**

# “Ölkəmizin müharibə şəraiti hər bir jurnalistdən vətənpərvər olmağı tələb edir”

## Mətbuat Şurasının sədri Əflatun Amaşov "Azərbaycan Ordusu"nun suallarına cavab verir

***Bu günlərdə Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin yanında dövlət orqanlarının informasiyanın verilməsinə məsul struktur bölmələrinin, KİV rəhbərlərinin müşavirəsi keçirildi. Ölkənin informasiya təhlükəsizliyinin təmin edilməsi istiqamətində bir çox həlli vacib olan məsələlərin müzakirəsinə həsr olunmuş müşavirə respublikada fəaliyyət göstərən media qurumlarını bir araya gətirdi.***

***Keçirilən müşavirədə hərbiyönümlü aktual məsələlərin geniş müzakirə olunmasını nəzərə alaraq, Azərbaycan Mətbuat Şurasının rəhbəri Əflatun Amaşovla görüşüb fikirlərini qəzetimizin oxucuları ilə bölüşməsinə imkan yaratdıq. Həmin söhbəti təqdim edirik.***



***- Əflatun müəllim, məlum müşavirədə müzakirə olunan aktual məsələlər cəmiyyətdə, xüsusən də mediada böyük rezonans doğurdu. Hər kəs belə toplantının keçirilməsinin vacibliyindən danışdı. Sizin də fikrinizi öyrənmək istərdim.***

- Avqustun 29-da Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri hörmətli Ramiz Mehdiyevin sədrliyi ilə keçirilmiş müşavirədə media sahəsində son zamanlar daha çox nəzərə çarpmaqda olan nöqsanlar konkret şəkildə vurğulanmaqla yanaşı, dövlətin müasir jurnalistikamız qarşısında duran vəzifələrinə konseptual yanaşma tərzi bir daha açıqlandı. Bu, olduqca vacib məqamdır. Fikrimi əsaslandırmaq üçün bir neçə cəhətə diqqət yetirmək istərdim.

Əvvəla ondan başlayım ki, Azərbaycan mediası indiyədək bir çox sınaqlardan çıxıb, müəyyən uğurlar da qazanıb. Ancaq təəssüflə qeyd etməliyəm ki, bəzən indiyədək qazanılmış peşəkarlıq vərdişlərini kölgələyən hallarla da üz-üzə qalırıq. Bu baxımdan avqustun 1-də cəbhə xəttində atəşkəsin geniş miqyasda pozulması faktı xüsusi vurğulanmalıdır.

Həmin zaman kəsiyində ilk baxışdan informasiya xaosunun yarandığını deyə bilərik. Bəzi xəbər portalları yanlış məlumatlar yayaraq cəmiyyətdə çaşqınlıq yaratdılar. Bu, bir tərəfdən məqsədli qüvvələr tərəfindən gerçəkləşdirilmiş addım idisə, digər tərəfdən, peşəkarlığın çatışmamasının təzahürü idi. Nəticə etibarilə yaranmış durum ümumən ölkənin informasiya təhlükəsizliyi məsələsini aktuallaşdırdı.

Müşavirə, özlüyündə, mediaya verilmiş mesaj idi. Bu mesajda dövlət maraqlarının hər bir mənfəət və mənafelərdən üstün olduğu konkret vurğulandı. Digər tərəfdən, tədbirin doğurduğu rezonansdan cəmiyyət də öz payını götürdü. Deyərdim ki, gərginlik aradan qalxdı. Ramiz müəllim dövlətin prinsipial dəst-xəttini bir daha ortaya qoymaqla Azərbaycanın ümumən təhlükəsizlik sisteminə olan təhdidlərin, bu və ya digər dərəcədə düşmən qüvvələr tərəfindən manipulyasiya predmetinə çevrilməsi mümkün olan proseslərin qarşısının qətiyyətlə alınacağını bəyan etdi. Buna görə də müşavirənin keçirilməsi zamanında atılmış addım idi.

***- İnformasiya təhlükəsizliyi sistemində əsas yer tutan amillərdən biri - hərbi sirlərin mətbuatda yer alması və ictimailəşməsi məsələsi müşavirədə daha çox müzakirə obyekti oldu. Sizcə Azərbaycan kütləvi informasiya vasitələrində hərbi mövzu necə təbliğ olunur?***

- Azərbaycan mediası hərbi vətənpərvərlik təbliğatına hər zaman böyük önəm verib. Müxtəlif qəzet səhifələrində milli qəhrəmanlarımızın həyat yolu barədə çoxsaylı materiallar yer alıb. Müxtəlif hərbi məsələlərə də diqqət yetirilib.

Bilirsiniz ki, keçmiş Sovetlər Birliyinin təsnifatında hərbi jurnalistika ayrıca sahə idi və bu sahəyə yiyələnmək istəyənlər üçün tədris prosesi də fərqliydi. Hazırda ümumən jurnalistikamızda ixtisaslaşma səviyyəsi zəifdir. Hərbi mövzu isə daha spesifik yanaşma tələb edir.

Digər tərəfdən, hərbi mövzunun işıqlandırılması məsələsinin nə üçün gündəmə gəlməsinə diqqət yetirək. Səbəb avqustun 1-dən başlayaraq cəbhə xəttində gərginliyin yüksək həddə çatması idi. Zənnimcə, həmin gərginliyin doğurduğu fəsad yalnız hərbi mövzudakı materialların təqdimatındakı yanlışlıqlarla məhdudlaşmırdı. sizlik və müdafiə mülahizələrinə görə xüsusi əhəmiyyət kəsb edən obyektlərin dislokasiyası, təyinatı, hazırlıq və müdafiə olunma dərəcəsi, qoşunların dislokasiyası, hərəkəti, həqiqi adları, təşkilati strukturu, şəxsi heyətinin sayı və onların döyüş təminatı, həmçinin hərbi-siyasi və ya əməliyyat şəraiti haqqındakı məlumatları və digər bu kimi məqamları fərqləndirdi. İnanıram ki, Azərbaycan mediası qarşıdakı fəaliyyətində göstərilən amilləri nəzərə alacaqdır.

*Media milli maraqları nəzərə almalı və ona söykənməlidir. Bu, hər bir jurnalistdən vətənpərvər olmağı tələb edir. Təsadüfi deyil ki, ölkə başçısı cənab İlham Əliyev də həmişə çıxışlarında jurnalistləri vətənpərvər olmağa çağırır.*

Media ümumilikdə cəmiyyətin ahənginə təsir göstərirdi. Cəbhədə əsgər həlak olursa və bununla bağlı xəbər hərbi mövzudadırsa, deyək ki, həmin əsgərin valideyninin ağır durumunu çəkib göstərmək mənəvi-psixoloji nöqteyi-nəzərdən qiymətləndirilməlidir. Təsəvvür edirsinizmi, insan faciəsinin doğurduğu səhnələri seyr edən neçə-neçə əsgər anası bir anlığa nələri düşündü…

Təbii, demək olmaz ki, avqustda yaşanan proseslər zamanı Azərbaycan cəmiyyətində bədbinlik yarandı. Əksinə, Azərbaycan Ordusunun işğal altındakı kəndləri azad etməsinə dair xəbərlər insanlarda qələbə ab-havası doğurdu. Amma narahatlıq doğuran məsələ məlumatların yanlışlığı ilə bağlı idi. Ən əsası isə bu yanlışlıq düşmən tərəfin xeyrinə işləyirdi. Erməni kütləvi informasiya vasitələri məsələyə tamam fərqli don geydirirdilər. Ramiz müəllim müşavirədəki çıxışında belə cəhətlər üzərində xüsusi dayandı. PA rəhbəri həmçinin ölkəmizin KİV-lərinin yaydıqları materialların qanuna zidd mahiyyətini əsas tutaraq onların təsnifatını verdi. Bu baxımdan Azərbaycan Respublikası Silahlı Qüvvələrinin strateji, operativ və səfərbərlik üzrə yerləşdirilməsi, onların döyüş və səfərbərlik hazırlığı, silah və hərbi texnika nümunələrinin taktiki-texniki xüsusiyyətləri və döyüşdə tətbiqi imkanları, milli təhlükə-

***- Müşavirədə səslənən vacib problemlərin həlli ilə bağlı hansı zəruri tədbirlər görəcəksiniz?***

- Müşavirə Azərbaycan dövlətinin söz və ifadə azadlığına yaratdığı münbit şəraitin hər hansı sui-istifadələrə meydan tanımayacağına dair mesaj idi. Jurnalistlərin informasiya təhlükəsizliyi ilə bağlı məsələlərdə məsuliyyət yükünün artırılması bu tədbirdə diqqət mərkəzinə çəkildi. Bunu rəhbər tutan kütləvi informasiya vasitələri Azərbaycan Mətbuat Şurasının tövsiyələrinə uyğun olaraq özlərinin daxili iclaslarını keçirdilər. Həmin toplantılarda Azərbaycanın müharibə şəraitində yaşadığı vurğulandı və jurnalist peşəkarlığında milli maraqlara sadiqliyin mühüm əhəmiyyət daşıdığı önə çəkildi, jurnalist peşəsinin milli mənafe təəssübkeşliyinin vacibliyi diqqətə çatdırıldı.

Mətbuat Şurası müşavirədən irəli gələn tələb və vəzifələrlə bağlı sentyabrın 5-də Beynəlxalq Mətbuat Mərkəzində "Azərbaycanın informasiya təhlükəsizliyi media müstəvisində" adlı konfrans keçirtdi. Ölkənin aparıcı KİV-lərinin, eləcə də elektron media rəhbərlərinin, tanınmış ekspertlərin və ictimaiyyət nümayəndələrinin iştirakı ilə baş tutmuş tədbir geniş diskussiyalar şəraitində keçdi. Toplantıda zəruri tövsiyə və təkliflər irəli sürüldü. Mətbuat Şurası həmin təklifləri qruplaşdıraraq ölkə rəhbərliyinə təqdim edəcək.

***- Avqustun əvvəllərində Ermənistan-Azərbaycan dövlət sərhədlərində və qoşunların təmas xəttində yaranan gərginlik barədə xəbərlər ölkə mediasının manşetinə çıxarıldı. Mənbəsi naməlum olan, xalqda çaşqınlıq yaradan məlumatlar xəbər portallarında yayılmağa başladı. Bütün bu halların baş verməsi jurnalistin qeyri-peşəkarlığından, naşılığından irəli gəlmirmi?***

- Bu sualı demək olar, söhbətimizin əvvəlki hissəsində cavablandıra bilmişəm. Əlbəttə, ölkənin milli maraqları ilə bilavasitə bağlı olan mövzuların və informasiyaların cəmiyyətə yanlış təqdim olunması yolverilməzdir. Elə həmin günlərdə Mətbuat Şurası cəbhə xəttində baş verən proseslərin işıqlandırılmasına ehtiyatla yanaşılmasının vacibliyini diqqətə çatdıran bəyanatla çıxış etmişdi.

Ümumən Azərbaycan jurnalistikasının peşəkarlıq problemi uzun illərdir müzakirə olunmaqdadır. Mətbuat Şurası məsələyə daim diqqət yetirir, müxtəlif səpkili seminar və "dəyirmi masa"lar gerçəkləşdirir. Görülən işlərin nəticəsidir ki, ötən illərlə müqayisədə jurnalistlərimizin peşəkarlıq səviyyəsində artım var. Ancaq məlum avqust hadisələrinə reaksiyanı indiqator kimi götürsək, əlbəttə, jurnalistikamız sınaqdan heç də üzüağ çıxmadı.

***- Sözün gücü, qüdrəti silahdan da artıqdır. Müharibə şəraitində olan, 20 faiz torpağını itirən ölkənin mediası müharibə qanunlarından çıxış edərək dövlətin maraqlarına xidmət etməli deyilmi?***

- Əlbəttə, media milli maraqları nəzərə almalı və ona söykənməlidir. Bu, hər bir jurnalistdən vətənpərvər olmağı tələb edir. Təsadüfi deyil ki, ölkə başçısı cənab İlham Əliyev də həmişə çıxışlarında jurnalistləri vətənpərvər olmağa çağırıb. Müharibə qanunları dedikdə isə heç də şərt deyil ki, müharibənin başlandığı elan edilsin. Qeyd etdiyiniz kimi, müharibə şəraitində yaşayırıq.

***- Son vaxtlar cəbhədə və əhali arasında yaşanan gərginliklə əlaqədar Müdafiə Nazirliyinin təşkilatçılığı ilə bir qrup ictimaiyyət və media nümayəndəsi ön xətdə hərbçilərlə görüşdü. Sərhəd bölgələrində yaşayan əhali və hərbçilərlə aparılan söhbətlər ordu ilə xalqın birliyinin təzahürünü göstərdi. Artıq xalq öz ordusuna güvənir...***

- Bəli, acınacaqlı hal idi ki, bəzi saytlar Ermənistanla sərhəddə, eləcə də qoşunların təmas xəttində yerləşən kəndlərin boşaldılmasına dair yalan məlumatlar yaydılar. Müşavirədə belə hallar da vurğulandı. Amma cəmiyyət xalqla ordunun vəhdətini gördü. Onu da gördü ki, vətəndaşlarımız ordumuza güvənirlər.

Cəbhə xəttinə yaxın ərazidəki kənddə məskunlaşan insanlarımız qəti şəkildə bilirlər ki, hazırda düşmən qarşısında qüdrətli Azərbaycan Ordusu dayanıb. İnam isə böyük qüvvədir.

Azərbaycan Respublikası Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin, eləcə də Müdafiə naziri general-polkovnik Zakir Həsənovun ön xətdə əsgərlərlə görüşməsi, onların qayğıları ilə maraqlanması xalqın orduya güvənini daha da artırır. Qeyd etməliyəm ki, Müdafiə nazirinin Milli Mətbuat Günü münasibəti ilə KİV nümayəndələrinə təbrik ünvanlaması da ordu rəhbərliyinin mətbuata diqqətinin təzahürüdür.

***- Kütləvi informasiya vasitələrində vətənpərvərlik, qələbə ruhlu, düşmənə nifrət aşılayan mövzuların geniş yer alması, bu mövzuda televiziya proqramlarının sayının və keyfiyyətinin artırılması bu gün xüsusi əhəmiyyət kəsb edir.***

- Əlbəttə, bu tip yazıların, verilişlərin istər kəmiyyətinin, istərsə də keyfiyyətinin artırılmasına ehtiyac var. Bütün dünyada belədir - telekanallar şou proqramların yayımına daha çox üstünlük verirlər. Aydındır ki, burada auditoriyanın tələbi də nəzərə alınır. İnsanlar əyləncəli verilişləri izləməyə daha çox maraq göstərirlər. Ancaq hesab edirəm ki, bizim telekanalların müəyyən balansı gözləməsi vacibdir. Hazırkı şəraitdə isə bu balans gözlənilmir.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu fəaliyyətə başlayandan sonra qəzetlərdə vətənpərvərlik ruhlu materialların sayında artım müşahidə olunub. Fondun elan etdiyi layihə, eləcə də fərdi jurnalist yazıları müsabiqələrində Dağlıq Qarabağ münaqişəsində Azərbaycanın ədalətli mövqeyinin təbliği, habelə milli vətənpərvərlik hisslərinin təbliğini nəzərdə tutan istiqamətlər yer alır. Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının elan etdiyi layihə müsabiqələrində də vətənpərvərliyin təbliğinə önəm verən istiqamətlər nəzərə alınır.

Düşünürəm ki, digər dövlət qurumlarının da bu istiqamətdə fəallığı olmalıdır.

***- Əflatun müəllim, maraqlı söhbətinizə görə çox sağ olun.***

**Müsahibəni yazdı:**
**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## Donbas səmasında pilotsuz təyyarələr uçacaq



Avropa təhlükəsizlik və əməkdaşlıq təşkilatı (ATƏT) Ukraynada atəşkəs rejimini izləmək üçün pilotsuz təyyarələrdən istifadə edəcək.

ANS PRESS-in məlumatına görə, bu barədə ATƏT sədri və İsveçrə prezidenti Didye Burkxalter bildirib. Burkxalter Ukraynadakı vəziyyəti qeyri-stabil xarakterizə edərək, Praqada ATƏT forumunda qeyd edib ki, təşkilat Donetsk və Luqansk bölgələrinə Ukrayna ordusu və rusiyayönlü separatçılara nəzarət etmək üçün 70 ekspert göndərib və missiya sürətlə inkişaf edir.

"Hazırda monitorinq sxeminə uyğun olaraq ATƏT-ə üzv ölkələrin töhfəsi kimi pilotsuz təyyarələrin tez bir zamanda istifadəsinin mümkünlüyünün danışıqları aparılır. ATƏT-in özünə aid olan pilotsuzlar isə qısa zamanda istifadəyə veriləcək", - Burkxalter deyib. Öz növbəsində ATƏT-in rəsmi nümayəndəsi Şiv Şarma bildirib ki, sentyabrın axırına və ya oktyabrın əvvəlinə təşkilat Ukraynaya ilk iki pilotsuz təyyarə göndərəcək. Onun sözlərinə görə, uçan aparatları Avstriya şirkəti olan "Schiebel" hazırlayacaq.

## İŞİD-in sonu çatır



ABŞ-ın dövlət katibi Con Kerri Birləşmiş Ştatların İraq və Suriyada İŞİD qrupuna qarşı koalisiyasının genişləndirilməsi məsələsini müzakirə etmək üçün Misirə səfər edib.

ANS PRESS-in məlumatına görə, Con Kerri Qahirədə Misirin Xarici İşlər naziri Sameh Şukri ilə danışıqlar aparıb. Misir ABŞ dövlət katibinin İŞİD qrupuna qarşı beynəlxalq koalisiyanın yaradılması üçün region ölkələrinə səfərinin son dayanacağıdır.

Con Kerri bildirib ki, cihadçılar islam adı ilə döyüşdüklərini deyir, lakin qrupun törətdiklərinin islamla heç bir əlaqəsi yoxdur. ABŞ dövlət katibinin sözlərinə görə, qrupun nifrət mesajları bütün dünyada müsəlmanların əksəriyyəti tərəfindən rədd edilib.

Müsəlman dünyasının ən qədim və ən mühüm təhsil mərkəzi olan Əl-Əzhər Universitetinin Qahirədə yerləşməsinə işarə edən Con Kerri Misirin ekstremist ideologiyasının qınanmasında böyük rolu olduğunu xüsusi qeyd edib.

Con Kerri ilə birgə mətbuat konfransında danışan Misirin Xarici İşlər naziri Şukri ABŞ dövlət katibinin terrorçular tərəfindən təhlükələrə qlobal səviyyədə cavab vermək haqda çağırışlarına dəstək bildirib. O deyib ki, Misir liderləri İŞİD qrupu və digər terrorçu qruplar arasında əlaqələri görür və onların beynəlxalq sərhədlərin hüdudlarından çox kənarda təhlükə törətdiyinə inanır.

## Ermənistana ilk zərbə




"AİR Armenia" şirkəti Rusiya mətbuatında yayılmış 1,1 milyon borc müqabilində Rusiya şirkətlərinə naviqasiya xidməti göstərilməsinin dayandırılması xəbərlərinə aydınlıq gətirib. ANS PRESS-in Ermənistan mətbuatına istinadən verdiyi məlumata görə, əslində, burada söhbət borcdan getmir. Bunun Qərbin Rusiyaya qarşı sanksiyalarının bir nəticəsi olduğu bildirilir.

Bildirilir ki, bu, Rusiyaya qarşı sanksiyaların Ermənistanda ilk təzahürüdür. Bunun ardının davam edəcəyi deyilir.

Ermənistanın bəzi müxalif saytları artıq bununla bağlı erməni hakimiyyətini kəskin tənqid etməyə başlayıb. Onlar bildirirlər ki, hökumət "bir əlində iki qarpız" tutmağa çalışır. Onlar bunun strateji səhv olduğunu deyirlər. Bununla da, qeyd edilən hadisə onsuz da çökməkdə olan Ermənistan iqtisadiyyatının məhvinə gətirib çıxaracaq.

## Türkiyə hökuməti İŞİD-lə mübarizədə öz qərarını verdi



ANS PRESS-in məlumatına görə, Türkiyənin yeni baş naziri Əhməd Davudoğlu ötən gün iqtidar nümayəndələrinin iştirakı ilə "Beynəlxalq təhlükəsizlik mexanizmi" adlı toplantı keçirib. Baş nazir Ə.Davudoğlunun sədrliyi ilə keçirilən toplantıda baş nazirin köməkçisi Bülənt Arınç, daxili işlər naziri Əfqan Ala, Milli müdafiə naziri İsmət Yılmaz, baş qərargah rəisi general Nəcdət Özəl, quru qoşunları komandanı general Hulusi Akar və digər səlahiyyətli nümayəndələr iştirak edib.

Toplantıda Türkiyənin İŞİD-ə qarşı quru əməliyyatına qoşulub-qoşulmaması mövzusuna, İraq və Suriyadakı qarşıdurmalara toxunulub. Üç saat davam edən toplantıda Türkiyənin bu prosesdə hər hansı bir hərbi əməliyyatda (quru və ya hava əməliyyatı) iştirakının mümkün olmayacağı qərarına gəlinib. İŞİD-in Suriyadakı Əsəd rejiminin bir nəticəsi olaraq göstərildiyi və buna görə də Türkiyənin müttəfiq koalisiyada yer almaması məsləhət bilinib.

## Təbriz ilə Moqilyov şəhərləri əlaqələrini genişləndirmək niyyətindədirlər



"Təbriz anma həftəsi" mərasimlərində iştirak etmək üçün Təbrizə səfərdə olan Belarusun Mogilyov şəhər merinin müavini Andrey Kotevşiç Təbriz şəhərinin bələdiyyə rəisi Sadiq Nəcəfi ilə görüşüb.

Görüşdə şəhər təsərrüfatının idarə edilməsi barədə təcrübə mübadiləsi aparılıb, şəhərlər arasındakı iqtisadi və mədəni əlaqələrin inkişafı məsələləri müzakirə edilib. Təbriz ilə Mogilyov şəhərləri arasında idman və mədəniyyət sahələrində əlaqələrin qurulması haqqında razılıq əldə olunub.

Mətbuat nümayəndələrinin suallarını cavablandıran A. Kotevşiç bildirib ki, əməkdaşlıq əlaqələrinin möhkəmlənməsi İran və Belarus xalqlarının yaxınlaşmasına səbəb olacaq.

**Hazırladı:**
**Ə.MƏHƏRRƏMOĞLU**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozmuşlar

**19 sentyabr 2014-cü il.**

Erməni silahlı bölmələri dünən və bu gecə Ağdam rayonunun Yusifcanlı, Qaraqaşlı, Mərzili, Xocavənd rayonunun Kuropatkino kəndləri yaxınlığında və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Silahlı Qüvvələrimizin mövqelərini atəşə tutublar.

Düşmən cavab atəşi ilə susdurulub.

## Bakıda "Silahlı Qüvvələr demokratik cəmiyyətdə" mövzusunda seminar keçirilib

**19 sentyabr 2014-cü il.**

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzində Azərbaycan-Almaniya ikitərəfli hərbi əməkdaşlıq proqramına əsasən, "Silahlı Qüvvələr demokratik cəmiyyətdə" mövzusunda seminar keçirilib.

Seminarda dünyanın bəzi aparıcı dövlətlərinin Silahlı Qüvvələrinin yaradılması, inkişafı, modernləşdirilməsi, təhlükəsizlik sektorunda islahatların həyata keçirilməsi, NATO-ya üzv dövlətlərin bu sahədə təcrübəsi və digər məsələlər barədə müzakirələr aparılıb.

# Hərbi qulluqçuların qida rasionunun gücləndirilməsi məqsədilə milli yeməklərə üstünlük verilir

Qablaşdırılmış hazır milli yeməklərin və yenilənmiş quru ərzaq dəstinin ilk nümunələri keçirilən irimiqyaslı təlimin şəxsi heyətinə verilib.

Hərbi hissələrdə şəxsi heyətin qidalanmasının keyfiyyətinin yaxşılaşdırılması və bişirilən yeməklərin çeşidinin artırılması məqsədilə milli yeməklərin hazırlanmasına üstünlük verilir.



Əsgər yeməkxanalarında aşpazların, yeməkxana və mətbəx işçilərinin, qabyuyanların mülki işçilərlə əvəz olunması hazırlanan yeməklərin və görülən işlərin keyfiyyətinə öz müsbət təsirini göstərir. Hərbi hissələr yeməkxana-mətbəx avadanlıqları, o cümlədən, ətçəkən, tərəvəzdoğrayan və kartoftəmizləyən maşınlar, elektrik tavaları, elektrik və qaz plitələri ilə təmin edilib və hazırda yeməkxanalarda keyfiyyətli milli yeməklərin bişirilməsinə diqqət daha da artırılıb.

Lakin ərazi relyefinə görə daşıma yolları çətin, təhlükəli, əlverişsiz, yüksək dağ şəraitlərində yerləşən və uzunmüddətli ərzaq tədarükü edilən hərbi hissələrin şəxsi heyəti üçün stasionar şəraitdəki kimi milli yeməklərin hazırlanmasında bəzi çətinliklər yaranır. Bu səbəbdən də qeyd edilən şəraitdə xidmət edən şəxsi heyətin konservləşdirilmiş milli yeməklərlə təmin edilməsi planlaşdırılaraq həyata keçirilir.

Belə ki, artıq ilk olaraq bir nəfər üçün 1 porsiyası 500-550 qramlıq tərəvəzli, yarmalı və tərəvəzli-yarmalı ət və sous şorbaları və 360-380 qramlıq badımcan, bibər, pomidor, kələm və qarışıq dolmalar hazırlanıb. Bununla da qısa bir müddətdə qeyri-stasionar şəraitdə yerləşən şəxsi heyətin gücləndirilmiş kalorili hazır və keyfiyyətli milli yeməklərlə təmin edilməsi məsələsi öz həllini tapıb.

Bundan əlavə, ərazi relyefinə görə daşıma yolları çətin, təhlükəli, əlverişsiz, yüksək dağ şəraitlərində, həmçinin içməli su mənbəyi olmayan yerlərdə xidmət edən, eləcə də döyüş şəraitində hesab olunan hərbi hissələrdə döyüş növbətçiliyi aparan hərbi qulluqçuların fiziki sağlamlığının qorunması məqsədilə gün ərzində bir nəfər üçün yeməklərin hazırlanmasına 2,5 litr, içmək üçün yay mövsümündə 2 litr, qış mövsümündə isə 1 litr qablaşdırılmış su verilir.

Qeyd edək ki, Silahlı Qüvvələrin hərbi qulluqçularının səhra şəraitində quru ərzaq payı dəsti çeşidinin və qida rasionunun enerji dəyərinin artırılması məqsədi ilə Nazirlər Kabinetinin müvafiq qərarı və Müdafiə nazirinin əmri ilə ərzaq payı normalarına 150 qr. ciyər paşteti və 100 qr. qatılaşdırılmış şəkərli süd əlavə edilib. Bununla da quru ərzaq payının ümumi enerji dəyəri 3236 kkal-dən 4000 kkal-dək artırılıb.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

*21 sentyabr Beynəlxalq Sülh Günüdür*

# Qoy "Sülh zəngi" çalınsın!

***Hələ ibtidai insanların yaşadığı dövrdən bu yana əmin-amanlıq, dinc yanaşı yaşamaq dünyamız üçün aktual olub. Bütün zamanlarda sülh insanların arzuladığı ən vacib nemət kimi dəyərləndirilib. Müharibə və münaqişə indiyədək milyonlarla insanın ömrünə son qoyub.***

Bu gün də dünyanın narahat bölgələrində, Suriyada, Əfqanıstanda, İraqda, Ukraynada, demək olar ki, hər gün günahsız insan qanı axıdılır, bədbəxtliklər baş verir. Milyonlarla insan müharibə və onun gətirdiyi fəlakətlərdən əziyyət çəkir. Belə bölgələrdə ədalətli sülhün bərqərar edilməsi və silahlı qarşıdurmalara son qoyulması insanların ən böyük arzusudur.

Dünyada baş verən hərbi-siyasi proseslərə kəsərli təsir imkanı olan yeganə nüfuzlu beynəlxalq qurum Birləşmiş Millətlər Təşkilatıdır. Məhz təşkilat tərəfindən milyonlarla insanın ən müqəddəs arzusunun ifadəsi kimi xüsusi bir bayram - Beynəlxalq Sülh Günü təsis edilib. Daha doğrusu, BMT Baş Assambleyasının 30 noyabr 1981-ci il tarixli qərarı ilə Beynəlxalq Sülh Günü atəşkəs və güc tətbiq etməkdən imtina günü kimi bütün dünyada qeyd olunmağa başlayıb. O zaman dünyanın 192 ölkəsi yekdil olaraq bu qərarın lehinə səs vermişdi. İlk Beynəlxalq Sülh Günü bir il sonra, yəni, 1982-ci ilin sentyabrında BMT Baş Assambleyasının açılış günündə qeyd olunub.

1999-cu ildə rejissor Ceremi Cilli incəsənətin həyatı yaxşılığa doğru dəyişməsi arzusu ilə "Peace one day" filmini yaratdı. Sonra o, heç olmasa, ildə bir gün bütün dünyada insan zorakılığının qarşısının alınması ideyasını irəli sürdü.

21 sentyabr nəinki yalnız xalqlar arasında, həmçinin, ailələrdə, məktəblərdə kökü zorakılığa qarşı mübarizənin əldə olunmasına nail olmaq üçün bir gündür. Bu səbəbdən də 21 sentyabr bütün planet insanları üçün çox vacibdir.



Payızın ilk günündə hərbi münaqişələrdə iştirak edən bütün dövlətlərə təklif olunur ki, silahı yerə qoyub hərbi əməliyyatları dayandırsınlar. Beynəlxalq Sülh Günündə dünyada bir sıra bayram tədbirləri - konfranslar, seminarlar və s. keçirilir. Ancaq həmin tarixdə keçirilən ən önəmli mərasim BMT-nin Nyu-Yorkda yerləşən mənzil-qərargahının qarşısında ucaldılmış "Sülh zəngi"nin çalınmasıdır.

"Sülh zəngi"ni BMT-yə 1954-cü ildə Yaponiya Parlamenti hədiyyə edib. 60 ölkədən olan uşaqların topladığı sikkələrdən, eyni zamanda orden və medallardan hazırlanmış qeyri-adi "Sülh zəngi"nin üzərində bu sözlər yazılıb: "Qoy bütün dünyada ümumi sülh bərqərar olsun!"

"Sülh zəngi" ildə iki dəfə - yazda gecə və gündüzün bərabərləşdiyi və Beynəlxalq Sülh Günündə çalınır.

Beynəlxalq Sülh Günündə də mərasim BMT-nin Nyu-Yorkda yerləşən mənzil-qərargahının qarşısında başlanır. Bayram günündə BMT-nin Baş katibi "Sülh zəngi"nin yanında öncə dünya xalqlarına öz ənənəvi müraciətini ünvanlayır, dünyanı bütün döyüş əməliyyatlarını, ədavəti 24 saat ərzində dayandırmağa çağırır. Bunun ardınca müharibə və münaqişələrdə həlak olanların xatirəsini yad etmək məqsədilə bir dəqiqəlik sükut elan edilir. Sonra BMT-nin Təhlükəsizlik Şurasının sədri çıxış edir. BMT həmin gün sülh məsələlərinə həsr edilmiş tədris və ictimai informasiya aksiyalarının təşkil olunmasını zəruri sayır.

Beynəlxalq Sülh Günü dünyanın bütün ölkələrində qeyd olunur və insanlar dinc yanaşı yaşamaq və təhlükəsizlik arzularını ifadə edirlər.

Mürəkkəb, hərbi-siyasi maraqların toqquşduğu geosiyasi məkanda yerləşən Azərbaycan üçün bu məfhum ikiqat dəyərlidir. Təəssüflər olsun ki, torpaqlarımızın 20 faizini işğal etmiş Ermənistan öz təcavüzkar planlarından əl çəkmək niyyətində deyil və Cənubi Qafqaz bölgəsində gərginliyin qalmasında əsas səbəbkardır. Qarabağ münaqişəsinin həllinin yubanması minlərlə soydaşımızın öz dədə-baba yurdlarına qayıtmasına imkan vermir. Bütün bunlar dünya və bölgəmiz üçün sülhün aktual problem olduğunu göstərir.

Ötən əsrin 90-cı illərində bədnam qonşularımızın təcavüzü nəticəsində ərazilərinin 20 faizi işğal edilmiş ölkəmizdə minlərlə soydaşımız müharibənin qurbanı olub, itkin düşüb, sağlamlığını itirib. Hətta son zamanlar düşmən təxribatı nəticəsində təmas xəttində baş vermiş insident itkisiz ötüşməyib. Ona görə Azərbaycan rəhbərliyi bölgəmizdə ədalətli sülhün, əmin-amanlığın təmin edilməsi üçün əlindən gələni əsirgəmir.

İnanırıq ki, Azərbaycan torpaqlarının işğaldan azad ediləcəyi, yurd-yuvasından didərgin düşmüş soydaşlarımızın öz ev-eşiyinə qayıdacağı və ölkəmizdə, bölgəmizdə daimi sülhün, əmin-amanlığın təmin olunacağı gün uzaqda deyil!

**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu"**



## Türkiyənin hərbi tədris müəssisələrinin nümayəndə heyəti ölkəmizdədir

Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında 2014-cü il üçün hərbi əməkdaşlıq Planına uyğun olaraq Türkiyənin hərbi tədris müəssisələrinin zabit, gizir və kursantlarından ibarət nümayəndə heyəti ölkəmizə tanışlıq səfərinə gəlib.

Səfər çərçivəsində qonaqlar sentyabrın 18-də Cəmşid Naxçıvanski adına Hərbi Liseydə olublar.

Türkiyə nümayəndə heyəti Hərbi Liseyin komandanlığı ilə görüşüb və onlara məktəb haqqında məlumat verilib.

Qonaqlar məktəbin ərazisi, tədris korpusları, maddi-texniki bazası, liseyin muzeyini gəzib, tədris prosesi ilə tanış olublar.

**AzərTAc**

## Tədbir maraqlı keçib

"N" hərbi hissəsində matrosların mənəvi-psixoloji hazırlığı ilə yanaşı, asudə vaxtlarının səmərəli keçirilməsinə də xüsusi diqqət yetirilir. Tarixi günlərdə, milli bayramlarda keçirilən tədbirlər kursantların dünyagörüşlərinin genişlənməsində, onların vətənpərvərlik duyğularının daha da dərinləşməsində vasitə olur.

Bu günlərdə keçirilən tədbirin də mahiyyəti asudə vaxtda mənəvi dəyərlərimizin təbliğinə həsr edilmişdi.

H.Aslanov adına Mərkəzi Zabitlər Evinin mahnı və rəqs ansamblının üzvlərinin (kiçik gizir Leyla Vahidqızı, gizir Ağabala Abdullayev, Samirə Sadıqova, Qoşqar Qasımov) ifasında səslənən mahnılar, ifa edilən rəqslər kursantlara könül xoşluğu verib. Əməkdar artist Rahilə Bəndəliyevanın mahnıları isə alqışlarla qarşılanıb. Matroslar Elmar İbrahimovun göstərdiyi gözbağlayıcı nömrələrini də maraqla izləyiblər.

Xalqımızın milli mədəniyyətinin tərkib hissəsi olan saz həmişə tədbirlərdə ruh oxşayıb. Gənc matros Şahin Süleymanovun sazda ifa elədiyi havalar hamını vəcdə gətirib.

**"Azərbaycan Ordusu"**

## Qan yaddaşımız

***Unutmamalıyıq ki, 1988-1994-cü illərdə Azərbaycanın bu torpaqları ermənilər tərəfindən işğal edilmişdir:***

*Dağlıq Qarabağ (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə, Hadrut), işğal tarixi - 1988-1994-cü illər. Sahəsi: 4400 kv.km.*
*Şərur rayonunun Kərki və Cünnüt kəndləri (17 fevral 1990) - 19 kv.km.*
*Laçın (17 may 1992-ci il) - 1835 kv.km.*
*Kəlbəcər (3-4 aprel 1993-cü il) - 1936 kv.km.*
*Ağdam (23 iyul 1993-cü il) - 1094 kv.km.*
*Cəbrayıl (18 avqust 1993-cü il) - 1059 kv.km.*
*Füzuli (23 avqust 1993-cü il) - 1386 kv.km.*
*Qubadlı (31 avqust 1993-cü il) - 802 kv.km.*
*Zəngilan (30 oktyabr 1993-cü il) - 707 kv.km.*

**Bu torpaqların azad edilməsi bizim müqəddəs borcumuzdur!**

## Xeyirxahlıq

***Tarixən həmişə belə olub. El dara düşəndə, Vətən üçün təhlükə yarananda xalq yumruq kimi birləşib, düşmənə qarşı müqavimət göstərib. Erməni qəsbkarları torpaqlarımıza hücum edəndə də belə oldu. Torpağına, el-obasına, ata-baba yurduna ürəkdən bağlı olan oğul və qızlarımız silaha sarılaraq torpaqlarımızın müdafiəsinə qalxdılar.***

Ümummilli liderimiz Heydər Əliyev 1993-cü ilin noyabr ayında ordunun daha da gücləndirilməsi üçün xalqa müraciət etdi. Bu müraciətdən dərhal sonra Vətən qeyrəti çəkən oğul və qızlarımız orduya gəldilər. İmkanlı və xeyirxah adamlar da orduya maddi-mənəvi dəstək olmağa başladılar. Məhz belə xeyirxah insanların köməkliyi sayəsində qısa müddət ərzində ordumuzun sıraları daha da möhkəmləndi. Ordu quruculuğunda inamlı addımlar atıldı. Vətənpərvər iş adamı Mahir Hüseynov da ulu öndər Heydər Əliyevin müraciətinə səs verən oğullardan birincisi oldu.

- Təbiidir ki, ağrı-acısını yaşadığımız həmin gərgin günlərdə Vətən qeyrəti çəkən hər kəs orduya kömək əlini uzatmalı idi, - deyir Mahir. - Ulu öndərin müraciəti məni də ruhlandırmışdı. Təbii ki, biz o çətin günlərdə ordumuzun qurulmasına, formalaşmasına mütləq kömək etməliydik. Vaxt itirmədən Rusiyada yaşayan dostlarımın vasitəsilə bu ölkənin istehsalı olan beş min ədəd uzunboğaz çəkmə aldım. Həmin günlərdə orduda buna böyük ehtiyac duyulurdu. Sonra həmin çəkmələri hərbçilərə təqdim etmək istəyində olduğum barədə Müdafiə Nazirliyinə məlumat verdim. Bir neçə gündən sonra çəkmələri bir-bir sayıb məndən təhvil aldılar. Bu gün qürur duyuram ki, ümummilli lider Heydər Əliyevin xalqa tarixi müracəitinə cavab olaraq başqa iş adamları kimi, mən də doğma ordumuza əlimdən gələn köməyi etdim. Bir vətəndaş kimi Vətən qarşısındakı övladlıq borcumun öhdəsindən az da olsa gələ bildim.

Doğma orduya köməyim bununla məhdudlaşmadı. 1994-cü ildə Müdafiə Nazirliyinə 4 ədəd xüsusi təyinatlı avtomobil və başqa zəruri hərbi avadanlıqlar hədiyyə etdim. Artıq ordumuz da, dövlətimiz də getdikcə güclənir. Daha ordumuzun əlavə yardımlara, köməyə ehtiyacı yoxdur. Çünki daim iqtisadi gücünü artıran dövlətimiz ordunun qurulması, formalaşması və inkişaf etməsi üçün lazım olan qədər vəsait ayırır.

Ordumuzun formalaşmasına bir vaxt kömək etmiş Mahir Hüseynova biz yalnız gördüyü xeyirxah işə görə "çox sağ ol" - deyirik.

Söhbətimizdə öyrəndim ki, Mahirin iki övladı - Xalid və Arif də doğma ordumuzun sıralarında xidmət ediblər. Çoxları kimi ona da "əsgər atası" adını daşımaq şərəfi nəsib olub.

**V. MƏMMƏDQULUOĞLU,**
**"Azərbaycan Ordusu"**

## Tarix unudulmur

***Uşaq vaxtı anamdan bir ifadə eşitmişdim: Qaxdağan. Yəni, gəlmələrə, əsli-kökü olmayanlara, insani duyğularını itirmişlərə el arasında belə deyərdilər. Tarix təsdiqləyir ki, ermənilər bu ərazilərə (aydınlıq xətrinə və daha dəqiqi: Qarabağa) gəlmədi, el arasında deyildiyi kimi, qaxdağandı; ermənilərin bu ərazilərə kütləvi köçürülməsi XIX əsrin əvvəllərinə təsadüf edir. Bu, rus imperiyasının məqsədyönlü siyasətinin tərkib hissəsi idi. Bununla da "Böyük Ermənistan" planı həyata keçirilməyə başlandı.***




Siyasi elmlər üzrə fəlsəfə doktoru Qafar Çaxmaqlının "İşğal və "məskunlaşdırma" fitnəkarlığı" kitabı istər zaman anlamında tarixin dünəninin, istərsə də bugününün söz mənzərəsini yaradır. İlkin mənbələrə istinadən köçürülmələr arasında məqsəd eyniliyi məntiqlə, dəlillərlə göstərilir. Bu, tarixi ekskurs təsiri bağışlasa da, müharibənin başlanması, müharibənin nəticələri haqqında (məskunlaşdırma siyasətinin əsasları) fikir söyləmək, nəticə çıxarmaq üçün istinaddır.

A.Qriboyedovun çara yazdığı məktub imperiyanın Qafqazda milli siyasətinin nədən ibarət olduğunu açıqlayır və bu məktub Q.Çaxmaqlının təhlillərinin nəyin üzərində qurulduğunun təsdiqi kimi alınmalıdır. Bununla paralel verilən, zənnimizcə, erməniləşdirmə siyasətinin iç üzünü açan rus tarixçisi V.Veliçkonun "Səhvən erməni adlandırılan, əslində isə erməni-qriqoryan təriqətini qəbul edən və yalnız üç-dörd əsr əvvəl erməniləşmə prosesinə qədəm qoyan əhali" haqqında erməni müəllifi B.İşxanyan yazırdı: "Dağlıq Qarabağda məskunlaşmış ermənilərin bir qismi yerli olub qədim Alban xalqının nəsilləri, bir qismi isə Türkiyə və İrandan qaçmış, Azərbaycan torpaqlarında təqib və təzyiqlərdən sığınacaq tapmış erməni əhalisidir" fikirləri o dövrdə məskunlaşmanın məzmununu, mahiyyətini və mexanizmini təsdiqləyir. "İşğal və "məskunlaşma" fitnəkarlığı" kitabında bu qəbil sənədlər, qeydlər geniş təhlil edilib.

Kitabda müəllif polşalı tarixçi Voytsex Postoşkanın bir qənaəti ilə ermənilərin tarixə münasibətini açıb göstərir; Tiqranakert absurdu və bu qəbil hallar ermənilik siyasətinin tam təsdiqidir və kitabda "məskunlaşmanın" astar üzü açılıb göstərilib. V.Pastoviç yazır ki, Tiqranakertdə aparılan qazıntılar "arxeoloji deyil, siyasi qazıntılardır".

"Separatizm" bölməsində Dağlıq Qarabağın və işğal altındakı rayonlarımızın erməniləşdirilməsinin strateji məqsədləri, planları şərh edilir. Müəllif Şuşa şəhərində 600-ə yaxın memarlıq abidəsinin dağıdılmasını təkcə işğalın nəticəsi kimi deyil, həm də erməniləşdirməyə hazırlıq olduğunu qeyd edir...

Q.Çaxmaqlının "İşğal və "məskunlaşdırma" fitnəkarlığı" kitabi tarixi hadisələrin və faktların təhlili baxımından dəyərlidir.

**Rəşid FAXRALI,**
**"Azərbaycan Ordusu"**

## Hərbi xidmət müddətində test

*Təkrar biliyin anasıdır. Bu mənada bəzi bilgiləri elə hərbi xidmət müddətində də təkrarlamaq imkanınız var. Bu imkanı sizlərə Müdafiə Nazirliyinin Birləşmiş Həmkarlar İttifaqı Komitəsi ilə "Azərbaycan Ordusu" qəzetinin "Hərbi xidmət müddətində test" birgə layihəsi verir. Testlər həftədə bir dəfə təqdim olunacaq (tarix, ədəbiyyat, mədəniyyət üzrə). Növbəti həftəyə kimi göndərilən cavablar nəzərə alınacaq. Gecikənlər (poçt göndərişinin üzərindəki möhürə əsasən) nəzərə alınmayacaq.*




*Müsabiqəyə ilin sonunda, Dünya Azərbaycanlılarının Həmrəylik Günü ərəfəsində yekun vurulacaq. Həmin müddətdə ən çox bal toplayan əsgərlər mükafatlandırılacaq:*

**I yer - 150 AZN**
**II yer - 100 AZN**
**III yer - 50 AZN**

**"Azərbaycan Ordusu"**

***1. Bakıdakı Şirvanşahlar sarayı neçənci əsrin memarlıq abidəsidir?***
a) XIV
b) XV
c) XVI
d) XVII

***2. Əlincə qalasının müdafiəsi hansı dövrü əhatə edir?***
a) 1387-1399
b) 1397-1407
c) 1417-1427
d) 1427-1437

***3. Şah İsmayıl Xətainin hakimiyyəti neçənci illəri əhatə edir?***
a) 1496-1514
b) 1501-1524
c) 1510-1534
d) 1501-1534

***4. Sasanilər sülaləsinin hakimiyyəti hansı dövrü əhatə edir?***
a) II-VIII
b) III-VII
c) II-VII
d) II-IX

***5. "Gülüstan" müqaviləsi hansı dövlətlər arasında bağlanıb?***
a) İran-Azərbaycan
b) İran-Türkiyə
c) Rusiya-İran
d) Rusiya-Azərbaycan

***6. Azərbaycanın ilk diplomat qadını hansı hökmdarın anası olub?***
a) Xətainin
b) Babəkin
c) Uzun Həsənin
d) Fərrux Yassarın

***7. Şirvan Səfəvi dövlətinə neçənci ildə birləşdirilib?***
a) 1574
b) 1475
c) 1547
d) 1600

***8. Şəkidəki Xan sarayı neçənci ildə inşa edilib?***
a) 1760
b) 1761
c) 1762
d) 1763

***9. Ağqoyunlu-Türkiyə müharibələri neçənci illərdə baş verib?***
a) 1462-1463
b) 1463-1464
c) 1471-1472
d) 1472-1473

***10. Ağa Məhəmməd Şah Qacar Şuşaya neçənci ildə gəlmişdi?***
a) 1791
b) 1793
c) 1715
d) 1797

***11. 1141-1209-cu illərdə yaşamış Azərbaycan şairi hansıdır?***
a) Fələki Şirvani
b) Əfsələddin Xaqani
c) Micurəddin Beyləqani
d) Nizami Gəncəvi

***12. 1231-ci ildə xalq üsyanı hansı şəhərdə olub?***
a) Bakı
b) Bərdə
c) Gəncə
d) Şəki

***13. Türkmənçay müqaviləsi neçənci ildə bağlanıb?***
a) 1825
b) 1826
c) 1827
d) 1828

***14. Sultan Türkiyəsi ilə Azərbaycan Səfəvilər dövləti arasında dörd illik müharibə nə vaxt olub?***
a) 1590-1603
b) 1603-1607
c) 1607-1611
d) 1611-1615

***15. Azərbaycanda ilk teatr tamaşası nə vaxt göstərilib?***
a) 1870
b) 1873
c) 1876
d) 1879

***16. Bakıda ilk kitabxana neçənci ildə açılıb?***
a) 1804
b) 1894
c) 1918
d) 1905

***17. Azərbaycan ərazisində mövcud olmuş dövlətlərin ardıcıllığı hansı bənddə düzdür?***
a) Manna,Atropatena, Midiya
b) Midiya, Manna, Atropatena
c) Manna, Midiya, Atropatena
d) Atropatena, Manna, Midiya

***18. Şifahi xalq ədəbiyyatının hansı janrında həm nəzm, həm də nəsr hissəsi olur?***
a) Nağıl
b) Dastan
c) Əfsanə
d) Lətifə

***19. Əsərlərdən birinin müəllifi Molla Pənah Vaqifdir:***
a) "Məni candan usandırdı..."
b) "Mədain xərabələri"
c) "Dağlar"
d) "Hayıf ki, yoxdur"

***20. "Fərhad və Şirin" əsərinin müəllifi kimdir?***
a) Nizami Gəncəvi
b) Fələki Şirvani
c) Səməd Vurğun
d) Süleyman Rüstəm

## Xarici hərbi xronika

### Modul gəmi əldə olunacaq

Rusiya Hərbi Dəniz Qüvvələri 2020-ci ilədək modul gəmi əldə edəcək. 2018-2020-ci illərdə Rusiya donanması ilk gəmini öz silahlanmasına qəbul edəcək. Gəmi hazır hissələrdən yığılacaq. Onun hazırlanmasında güc qurğusu, silahlanma, naviqasiya və rabitə sistemləri də nəzərə alınacaq. Hərbi gəmi bir çox tapşırıqları yerinə yetirəcək. Rusiya Hərbi Dəniz Qüvvələrinin yeni gəmilərlə təchiz olunması bu ölkənin yenidən silahlanmasının təzahürüdür.

### Amerika hərbçiləri M4 karabinindən imtina etmək istəmirlər

M4 karabini M16 hücum tüfənginin kiçik formasıdır və 1960-cı ildən silahlanmadadır. "Vaşinqton tayms" qəzetinin məlumatına görə, M4 silahlar içərisində üstünlük təşkil edir. Keçirilən testlərdə 4,5 min atışa qarşı bu silah 6 min atış həyata keçirib. İstehsalçının məlumatına görə, hərbçilər son anda test zamanı cəmi üç güllə növü dəyişiblər. Bu da M4 silahının üstünlük təşkil etməsinə gətirib çıxarıb. İstehsal olunmuş 500 ədəd M4 silahı silahlanmada saxlanılıb.

### Xüsusitəyinatlılar üçün qumbaraatan

ABŞ-ın Xüsusi Əməliyyatlar Komandanlığı Saab İsveç şirkəti ilə Cari Gustav tank əleyhinə əl qumbaraatanı və döyüş sursatlarının alınması üzrə 14,3 milyon dollar həcmində beşillik müqavilə bağlayıb. Cari Gustav 84 mm-lik dinamoreaktiv silahdır. Onun hərəkət etməyən hədəflərə qarşı atəş uzaqlığı 700 metr, hərəkət edən hədəflərə qarşı isə 150 metr təşkil edir. Bu silahdan dəqiqədə altı atəş açmaq olar.

**Hazırladı:**
**Svetlana NƏSİBQIZI**

Polkovnik-leytenant Əliyev Murazəli Fərrux oğluna 1997-ci ildə verilmiş müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Məsul katib**
mayor
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavinləri: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, Akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Rəşid FAXRALI

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə nəşr olunur. "Azərbaycan Ordusu" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Hərbi nəşriyyatın mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 293
Nüsxə 4570